# Avropa İttifaqı və Avropa Şurasının
# **Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq Proqramı 2019-2021-ci illər**

#strongertogether

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe

## YAXŞI İDARƏÇİLİK NAMİNƏ TƏRƏFDAŞLIQ

Məhkəmə islahatları və korrupsiyaya qarşı mübarizə vətəndaşların dövlət qurumlarına daha çox etibar etməsi, Şərq Tərəfdaşlığı bölgəsində investisiya üçün təhlükəsiz mühit və uzunmüddətli regional sabitlik üçün vacibdir.

Bu əqidəyə əsaslanan və ortaq dəyərlərə söykənən Avropa İttifaqı və Avropa Şurası, Avropa İttifaqının 2020-ci il üçün nəzərdə tutulmuş hədəflərinin və Avropa Şurası qarşısında öhdəliklərinin həyata keçirilməsini dəstəkləmək üçün Şərq Tərəfdaşlığı ölkələri ilə birlikdə çalışırlar. Bu, 2014-cü ildə birgə təşəbbüs olaraq başlanmış Yaxşı İdarəçilik üçünTərəfdaşlıq (YİT) proqramı vasitəsilə həyata keçirilir. YİT, Şərq Tərəfdaşlığı ölkələrinə insan hüquqları, qanunun aliliyi və demokratiya sahələrində qanunvericiliyi və təcrübəni Avropa standartlarına yaxınlaşdırmaq üçün xüsusi dəstək göstərir.

2017-ci ildən etibarən YİT, Avropa Şurası standartlarına uyğun olaraq, milli hökumətlərə məhkəmə sistemi və korrupsiyaya qarşı mübarizə sahəsində islahatların həyata keçirilməsində kömək etmək məqsədilə hüquqi ekspertiza və texniki yardım göstərmək üzərində diqqəti cəmləmişdir. Proqram 2021-ci ilə qədər fəaliyyət göstərir.

Artıq müstəqil antikorrupsiya orqanları və məhkəmə sistemi üzrə islahatlarda irəliləyiş əldə edilmişdir. Vətəndaşların daha səmərəli və keyfiyyətli xidmətlər əldə etməsi və nail olunmuş nəticələrin qorunub saxlanılması istiqamətində iş davam edir.

YİT metodlarına hüquq ekspertizası, potensialın artırılması, maarifləndirmə və həmkarların qiymətləndirməsi, o cümlədən, ehtiyacların qiymətləndirilməsi, qanunvericiliyin nəzərdən keçirilməsi, konfranslar/seminarlar, şəbəkələnmə və Avropa Şurasının işçi heyəti və beynəlxalq ekspertləri tərəfindən təlim verilməsi daxildir. Proqram, sektorlararası əməkdaşlığa əsaslanan çoxtərəfli və müxtəlif maraqlı tərəfləri əhatə edən bir yanaşma yürüdür. Yüksək dərəcədə açıqlıq və vəziyyətə çevik uyğunlaşma YİT-in əsas gücüdür ki, maraqlı tərəflər və faydalananlar tərəfindən öz təsdiqini tapıb. YİT, yüksək dərəcədə müvafiq, effektli və dayanıqlı yardımın verilməsi məqsədini güdür ki, bu, artıq son qiymətləndirmələrdə öz təsdiqini tapmışdır.


HELP
CERTIFICATE
Certificate
Pakiza Suleymanova


FOR JUDGES AND PROSECUTORS ON ENSURING WOMEN'S ACCESS TO JUSTICE
REGIONAL STUDY ON WOMEN'S POLITICAL REPRESENTATION IN THE EASTERN PARTNERSHIP COUNTRIES


SCARA CASCADELOR
КАСКАДНАЯ ЛЕСТНИЦА
STAIRCASE OF THE CASCADES
BISERICA "SF. PANTELIMON"
ЦЕРКВА СВЯТОГО ПАНТЕЛЕЙМОНА
CHURCH OF ST. PANTALEON











# Aİ 2020 Hədəf 9: Qanunun aliliyi və korrupsiyaya qarşı mübarizə mexanizmlərinin gücləndirilməsi

## NƏLƏRƏ NAİL OLUNUB:

- Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada korrupsiyaya, çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sahəsindəki normaları gücləndirən qanunların qəbul edilməsi
- Ermənistan, Gürcüstan və Ukraynada maliyyə xarakterli məlumatların və maraqların toqquşması barədə məlumatların təqdim edilməsi üzrə daha səmərəli sistemlər
- Qanunsuz maliyyə axını, çirkli pulların yuyulması, korrupsiya və terrorçuluğun maliyyələşdirilməsi ilə mübarizə vasitəsi kimi benefisiar mülkiyyətin daha da şəffaflığı
- Hüquq-mühafizə orqanlarının korrupsiya işlərini təhqiq etmək potensialının artırılması
- Qeyri-qanuni varlanmanın həllinə yönəlməyə qabil edən vasitələrin istifadəsi ilə bağlı siyasətçilər və professionalların biliklərinin artırılması
- Belarusda və Gürcüstanda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi risklərinin qiymətləndirilməsi və azaldılması mexanizmlərinin təkmilləşdirilməsi
- Azərbaycanda və Gürcüstanda çirkli pulların yuyulması və terrorçuluğun maliyyələşdirilməsi ilə bağlı işlərin təhqiqi, cinayət təqibi və məhkəmə qərarı verilməsi üzrə cinayət mühakiməsi sahəsində 400 mütəxəssisin potensialının artırılması

## NƏLƏR EDİLMƏLİDİR:

- GRECO tövsiyələrinə uyğun olaraq korrupsiyaya qarşı mübarizə üçün institusional əsasların daha da gücləndirilməsi
- Maliyyə xarakterli məlumatların və maraqların toqquşmasının bəyan edilməsi sistemlərinin daha da təkmilləşdirilməsi
- Korrupsiya ilə əlaqəli cinayətlərin təhqiqi, cinayət təqibi və barəsində məhkəmə qərarları verilməsinin daha da təkmilləşdirilməsi
- Çirkli pulların yuyulmasına və terrorçuluğa qarşı mübarizə strukturlarının potensialının daha da gücləndirilməsi
- Korrupsiyaya, çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə və qarşısının alınması sahəsində regional əməkdaşlıq mexanizmlərinin daha da gücləndirilməsi

### Avropa Şurası standartları və monitorinqi

Korrupsiya əleyhinə birləşmiş Dövlətlər Qrupu (GRECO) korrupsiyaya qarşı mübarizə üzrə milli qanunvericilik və siyasətdəki çatışmazlıqları müəyyənləşdirir və dövlətləri zəruri qanunvericilik, institusional və ya inzibati islahatlar aparmağa sövq edir. Qrupun qiymətləndirməsi Avropa Şurasının müvafiq konvensiyalarına əsaslanır.

Çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə tədbirlərinin qiymətləndirilməsi üzrə Ekspertlər Komitəsi (MONEYVAL) üzv ölkələrdə çirkli pulların yuyulmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə sistemlərinin effektivliyini qiymətləndirir.

# Aİ 2020 Hədəf 10: Əsas məhkəmə islahatlarının həyata keçirilməsini dəstəkləmək

## NƏLƏRƏ NAİL OLUNUB:

- Avropa Şurasının standartlarına uyğun olaraq Ermənistanda məhkəmə hesabatlılığının gücləndirilməsi və əlaqədar qanunvericiliyin qəbul edilməsi
- Avropa Şurasının Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Komissiyasının (CEPEJ) vasitələri və metodologiyasına uyğun olaraq, Azərbaycanda və Moldova Respublikasında daha səmərəli gündəlik məhkəmə idarəetməsi.
- Azərbaycanda və Moldova Respublikasında pilot məhkəmələrdə xidmətlərin səmərəliliyini və keyfiyyətini artırmaq üçün məhkəmə məlumatlarının toplanması və təhlilinin təkmilləşdirilməsi
- Daxili məhkəmələrin və Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasının təkmilləşdirilməsi
- Məhkəmə səriştəliliklərinin və Avropa İnsan Hüquqları Konvensiyasının daha yaxşı tətbiqini təmin etmək üçün Ermənistan, Azərbaycan, Gürcüstan, Moldova Respublikası və Ukraynada məhkəmə sistemi təlimi müəssisələrinin potensialının artırılması
- Gürcüstan və Moldova Respublikasında etik və intizam prosedurlarının təkmilləşdirilməsi: Gürcüstanda vəkillərin 63% və Moldova Respublikasında 56%-i daha ədalətli və effektli intizam prosedurlarını mənimsəmişlər
- Şərq Tərəfdaşlığı ölkələrindən olan məhkəmə sektoru nümayəndələrinin 70%-i Avropa məhkəmə standartları ilə bağlı biliklərini artırmışdır
- Şərq Tərəfdaşlığı ölkələrində qadınların ədalət mühakiməsinə çıxış əldə etməsi üçün strukturlar, siyasət və təcrübələr təkmilləşdirilmişdir

## NƏLƏR EDİLMƏLİDİR:

- Qanunvericilik bazasının və məhkəmə islahatlarının həyata keçirilməsi mexanizmlərinin daha da gücləndirilməsi və Şərq Tərəfdaşlığı ölkələrində hədəf qoyulmuş məhkəmə islahatlarının həyata keçirilməsinin dəstəklənməsi
- Avropa standartlarına və yaxşı təcrübələrə əsaslanan effektli məhkəmə hesabatlılığı sisteminin daha da gücləndirilməsi, xüsusilə, qadınlar üçün ədalət mühakiməsinə çıxışın daha da yaxşılaşdırılması
- Ədalət mühakiməsinin səmərəliliyi və keyfiyyətini artırmaq üçün CEPEJ vasitələrinin tətbiqini daha da gücləndirmək
- Avropa standartlarına və qabaqcıl təcrübələrə uyğun olaraq məhkəmə sektoru mütəxəssislərinə təlim keçmək üçün təlim müəssisələrinin təlim təminatı və potensialının daha da artırılması
- Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarının icrasının daha da təkmilləşdirilməsi
- Vəkillər Kollegiyaları və hüquq cəmiyyətləri arasında regional əməkdaşlığın daha da gücləndirilməsi

### Avropa Şurası standartları və monitorinqi

- Ədalət Mühakiməsinin Səmərəliliyi üzrə Avropa Komissiyasının (CEPEJ) işi ədalət mühakiməsinin keyfiyyət və səmərəliliyini artırmaq üçün idarəetmə vasitələrini, ən yaxşı təcrübələri və təlimatları inkişaf etdirmək üzərində cəmlənmişdir. O, mütəmadi olaraq, Avropa məhkəmə sistemlərinin qiymətləndirilməsi ilə bağlı hesabatlar dərc edir.

- Avropa Prokurorlarının Məşvərət Şurası (CCPE) rəylər hazırlayır, Cinayət Mühakiməsi Sistemində Prokurorluğun rolu haqqında (2000) 19 saylı Tövsiyənin icrasını təşviq edir və Avropada prokurorluq orqanlarının fəaliyyəti haqqında məlumat toplayır.

- Avropa Hakimlərinin Məşvərət Şurası (CCJE) Avropada hakimlərin rolunu gücləndirmək məqsədilə rəylər hazırlayır və Avropa Şurası standartlarının tətbiq edilməsini təşviq edir.

## HÜQUQ VASİTƏSİLƏ DEMOKRATİYA UĞRUNDA AVROPA KOMİSSİYASI (VENESİYA KOMİSSİYASI)

- Hüquq vasitəsilə Demokratiya uğrunda Avropa Komissiyası Avropa Şurasının konstitusiya məsələləri üzrə məşvərətçi orqanıdır və üzv dövlətlərə öz hüquqi və institusion strukturlarını demokratiya, insan hüquqları və qanunun aliliyi sahələrində Avropa standartlarına və beynəlxalq təcrübəyə uyğunlaşdırmağa qabil edən hüquqi məsləhəti təmin edir.

- Venesiya Komissiyası, həmçinin, münaqişələrin idarə edilməsində özünəməxsus rol oynamaqla, ümumi konstitusiya irsinin yayılmasını və bir araya gətirilməsini təmin etməyə kömək edir və keçid dövründə olan dövlətlərə «təcili konstitusion yardım» göstərir.

## ÇEVİK CAVAB MEXANİZMİ

- Çevik Cavab Mexanizmi çərçivəsində, Venesiya Komissiyası tərəfindən öz səlahiyyətləri daxilində, demokratik təsisatlar və təməl hüquqlar daxil olmaqla, seçkilər, referendum və siyasi partiyalar və konstitusiya və tipik ədalət mühakiməsi üzrə hüquqi ekspertiza təmin edilə bilər.

# Gender bərabərliyi və ayrıseçkilik qoyulmamasının təşviqi

## Ayrıseçkiliklə mübarizə və həssas qrupların və qadınların hüquqlarının müdafiəsi

Ayrıseçkilik qoyulmaması bərabərlik prinsipinin ayrılmaz hissəsidir. O, şəxsin milli və ya etnik mənsubiyyətindən, dilindən, dinindən, siyasi və ya digər əqidəsindən, sosial və ya iqtisadi vəziyyətindən, cinsi oriyentasiyasından və gender kimliyindən asılı olmayaraq insan hüquqlarından bərabər istifadə imkanını və istifadəni təmin edir. YİT ayrıseçkiliyə və nifrət əsaslı cinayətlərə qarşı mübarizədə və həssas qrupların və qadınların hüquqlarının qorunmasında əhəmiyyətli irəliləyiş əldə olunmasına töhfə verir.

## NƏLƏRƏ NAİL OLUNUB:

- Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının daha yaxşı alınması və mübarizə: qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və mübarizəyə dair Avropa Şurası Konvensiyasının (İstanbul Konvensiyası) Gürcüstan tərəfindən imzalanması və ratifikasiyası, Konvensiyanın Ermənistan, Moldova Respublikası və Ukrayna tərəfindən imzalanması
- Qadınlara qarşı zorakılıq və məişət zorakılığı ilə bağlı qanunvericiliyin Ermənistan, Gürcüstan, Moldova Respublikası və Ukrayna tərəfindən qəbul edilməsi
- Hüquq mütəxəssislərinin təlimi, məhkəmə sistemi təlimi müəssisələrinin potensialının artırılması və məhkəmə sistemi təlimi vasitələrinin uyğunlaşdırılması vasitəsilə Şərq Tərəfdaşlığı ölkələrində qadınların ədalət mühakiməsinə daha yaxşı çıxışı

## NƏLƏR EDİLMƏLİDİR:

- Bütün Şərq Tərəfdaşlığı ölkələrinin İstanbul Konvensiyasına daxil olmasını və Konvensiyanın müddəalarının effektiv şəkildə həyata keçirilməsini təmin etmək
- Nifrət əsaslı cinayətlər və nifrətdən qaynaqlanmış çıxışlar sahəsi daxil olmaqla, ayrıseçkiliyə qarşı siyasətin Avropa standartlarına uyğunlaşdırılması
- Həssas qruplara mənsub şəxslərə ayrıseçkilik barədə şikayətlərini verməkdə yardım etmək üçün “bərabərlik orqanları” və vətəndaş cəmiyyəti təşkilatlarının potensialının artırılması

### Avropa Şurası standartları və monitorinqi

Qadınlara qarşı zorakılıq və məişət zorakılığı əleyhinə fəaliyyət üzrə Ekspertlər Qrupu (GREVIO) Qadınlara qarşı zorakılığın və məişət zorakılığının qarşısının alınması və mübarizəyə dair Avropa Şurası Konvensiyasını (İstanbul Konvensiyası) Tərəflərin icra etməsinə nəzarətə məsul olan müstəqil ekspert orqanıdır.

İrqçiliyə və Qeyri-tolerantlığa qarşı Avropa Komissiyası (ECRI) müntəzəm olaraq 47 üzv dövlətdə irqçilik, irqi ayrıseçkilik, ksenofobiya, anti-semitizm və qeyri-tolerantlıq problemlərini monitorinq edir və üzv dövlətlərə tövsiyələr verir.

Milli Azlıqların Müdafiəsinə dair Çərçivə Konvensiyası üzrə Məşvərət Komitəsi (FCNM) aidiyyəti ölkələrdə azlıqların müdafiəsini, sərbəst toplaşmaq, ifadə, vicdan, dini etiqad azadlığı və mediyadan və öz dilindən istifadə azadlıqlarını qiymətləndirən monitorinq mexanizmidir.

Yaxşı İdarəçilik üçün Tərəfdaşlıq proqramı, Aİ və ona üzv dövlətlər və altı Şərq tərəfdaşlığı qonşusu: Ermənistan, Azərbaycan, Belarus, Gürcüstan, Moldova Respublikası və Ukrayna arasındakı əlaqələri dərinləşdirmək və gücləndirmək məqsədi ilə Aİ-nin 2020-ci il üçün hədəflərinə və bölgədəki vətəndaşlar üçün nəzərəçarpan nəticələrə nail olunması istiqamətində töhfə verir.

EaP | Eastern Partnership

## ƏTRAFLI MƏLUMAT ÜÇÜN:

@partnershipgovernance

@CoeEapPCF

odgp_pgg@coe.int

http://partnership-governance2-eu.coe.int

PREMS 182719 – Photos: Council of Europe

AZE

Avropa Şurası qitənin aparıcı insan hüquqları təşkilatıdır. O, Avropa İttifaqına üzv olan bütün dövlətlər daxil olmaqla, 47 üzv dövlətdən ibarətdir. Avropa Şurasına üzv olan bütün dövlətlər insan hüquqlarının, demokratiya və qanunun aliliyinin müdafiəsi məqsədilə yaradılmış saziş olan Avropa İnsan Hüquqları Konvensiyasını imzalamışlar. Avropa İnsan Hüquqları Məhkəməsi Konvensiyanın üzv dövlətlərdə icrasına nəzarət edir.

**www.coe.int**

Avropa İttifaqına üzv dövlətlər öz təcrübələrini, resurslarını və müqəddəratlarını bir-biri ıə bağlamaq qərarına gəlmişlər. Onlar birlikdə, mədəniyyət müxtəlifliyini, tolerantlığı və fərdi azadlıqları qorumaqla sabitlik, demokratiya və dayanıqlı inkişaf zonası yaratmışlar. Avropa İttifaqı öz nailiyyətlərini və dəyərlərini öz hüdudlarından kənarda olan ölkələr və xalqlarla bölüşmək əqidəsinə sadiqdir.

**www.europa.eu**

Funded
by the European Union
and the Council of Europe

EUROPEAN UNION

COUNCIL OF EUROPE
CONSEIL DE L'EUROPE

Implemented
by the Council of Europe